# 2022-ci ilin dövlət büdcəsi davamlı inkişafa təminat yaradacaq

***Azərbaycan dövlətinin əsas maliyyə sənədi sayılan 2022-ci ilin büdcə zərfi ümumdövlət maliyyəsinin ayrılmaz tərkib hissəsi olduğuna görə onun göstəricilərinə əsaslanaraq, ölkənin iqtisadi vəziyyəti barədə bir sıra mühüm məqamları diqqətə çatdırmaq istərdik. Əvvəlcə onu xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyası koronavirus pandemiyasının davam etməsinə və dünyada iqtisadi fəallığın tam bərpa olunmamasına baxmayaraq dövlətimizin dinamik inkişafını reallaşdırmağa imkan verib.***

Azərbaycanın tarixində ən böyük həcmli sayılan gələn ilin büdcəsinin icrası da qarşıya qoyulan strateji vəzifələrin yerinə yetirilməsinə möhkəm zəmin yaradır. Eyni zamanda, növbəti ilin büdcə xərcləri ilk dəfə olaraq 30 milyard manata yaxınlaşacaq ki, bu da cari illə müqayisədə 1 milyard 336 milyon manat artıq vəsait deməkdir.

Əsas maliyyə sənədində düşməndən təmizlənən ərazilərimizdə bərpa-quruculuq işlərinin aparılması məsələsinə xüsusi önəm verilib. Milli Məclisin iclasında erməni faşistlərinin dağıtdıqları yaşayış sahələrinin indiki vəziyyəti geniş təhlil olunaraq, 30 ilə yaxın müddətdə bu torpaqların urbisidə (şəhər və kəndlərin məhv edilməsi), kultosidə (mədəniyyət abidələrinin məhv edilməsi) və ekosidə (təbiətin və ekologiyanın məhv edilməsi) məruz qaldığının aşkarlandığı vurğulanıb. Erməni faşizminin bu vandal əməllərini aradan qaldırmaq üçün Azərbaycan dövləti cari ildə bərpa-quruculuq layihələrinin icrasına başlayıb. Qısa müddətdə ərazilərin minalardan təmizlənməsi, genişmiqyası tikinti işlərinin aparılması, lazımi infrastrukturun yaradılması istiqamətlərində xeyli iş görülüb. Şuşada mədəniyyət abidələrinin bərpası, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, yol infrastrukturunun işə düşməsi Azərbaycan dövlətinin quruculuq niyyətini və gücünü dünyaya nümayiş etdirib.

Bütün bunlarla bərabər, respublikada pandemiya və vaksinasiya tədbirlərinin gerçəkləşdirilməsi də diqqətdə saxlanılıb. Belə ki, bu ilin sonunadək hər ölkə üzrə əhalinin minimum 40 faizinin vaksinasiya olunması nəzərdə tutulduğu halda, Azərbaycan üzrə bu göstərici artıq 44 faizi keçib.

Ölkədə iqtisadi sahənin inkişafına da xüsusi diqqət yetirilir. Ötən il 3 faizdən çox azalan qlobal ÜDM-in 2021-ci ildə 5,9 faiz artacağı proqnozlaşdırılır. Azərbaycanda rəqəmsal transformasiyanın, Qarabağ və Şərqi Zəngəzurda "yaşıl iqtisadiyyat"ın inkişaf prioriteti kimi seçilməsi nəticəsində respublikamızın xeyli üstünlük qazanacağı gözlənilir.

**(ardı 3-cü səhifədə)**

# 2022-ci ilin dövlət büdcəsi davamlı inkişafa təminat yaradacaq



(əvvəli 1-ci səhifədə)

Gələn il üzrə dinamik artım tempinin, eləcə də, büdcə gəlirlərinin və xərclərinin icrasında qarşılıqlı nisbətin qorunub saxlanması, büdcə kəsirinin proqnozlaşdırılan səviyyədən xeyli aşağı olması, tədiyə balansı hesablarında müsbət dinamikanın qorunması, qeyri-neft ixracının, habelə qeyri-neft vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artması, makro-iqtisadi sabitlik sözügedən dövlət büdcəsinin planlaşdırılmasında mühüm baza rolunu oynayıb.

Xatırladaq ki, gələn ilin dövlət büdcəsinin layihəsi bir sıra məqamları ilə diqqət çəkir:

– layihədə 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 milyard 816 milyon manat, xərcləri 29 milyard 879 milyon manat məbləğində nəzərdə tutulur;

– növbəti ilin büdcə gəlirlərinin Dövlət Vergi Xidməti tərəfindən 8 milyard 820 milyon manat, Gömrük Komitəsinin xətti ilə 4 milyard 260 milyon manat daxilolmalar nəticəsində təmin edilməsi proqnozlaşdırılır;




– büdcədənkənar gəlirlər 760 milyon manat, digər daxilolmalar isə 260 milyon manat məbləğində proqnozlaşdırılır. Eyni zamanda, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfer 12 milyard 710 milyon manat məbləğində nəzərdə tutulur. İcmal büdcənin gəlirləri 27 milyard 677 milyon manat, icmal büdcənin xərcləri isə 32 milyard 906 milyon manat məbləğində nəzərdə tutulur;

–işğaldan azad edilən ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi, Qarabağın və Şərqi Zəngəzurun Azərbaycan iqtisadiyyatına reinteqrasiyası üçün 2,2 milyard manat məbləğində vəsaitin ayrılması təklif olunur.

Bütün bunlarla bərabər büdcədə xalqın rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi üçün 2022-ci il yanvarın 1-dən əmək haqlarının və əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin, həmçinin digər sosial ödənişlərin artırılması qarşıya mühüm vəzifələr kimi qoyulub.




Gələn ilin dövlət büdcəsi də ənənəvi olaraq sosialyönümlü xarakter daşıyır. Belə ki, büdcədə sosial xərclər 46,4 faizə çatdırılır və 2021-ci illə müqayisədə 13,5 faiz, yəni 1 milyard 650 milyon manat artırılır. Bu xərclərin maliyyə tutumunu 13 milyard 851 milyon manata çatdırmaq nəzərdə tutulur. Həmin xərclərin 60 faizi əməyin ödənilməsi ilə bağlıdır. Yeri gəlmişkən, 2022-ci ildə əməyin ödənilməsinə 8 milyard 97 milyon manat məbləğində vəsait təklif olunur. Sosial təminat xərcləri üçün dövlət büdcəsində 3 milyard 566 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Büdcə layihəsində prioritet istiqamətlərdən biri də təhsil sahəsidir. Təhsil xərclərinə büdcədən 3 milyard 884 milyon manat ayrılması nəzərdə tutulur. Digər prioritet istiqamət olan səhiyyə sahəsinə ayrılan vəsait cari ildən başlayaraq tətbiq olunan icbari tibbi sığorta öhdəlikləri də nəzərə alınmaqla, 1 milyard 789 milyon manat səviyyəsində müəyyən edilir. Gənclər və idman sahəsinə isə 44 milyon manat, turizmin inkişafı üçün 59 milyon manat vəsaitin ayrılması planlaşdırılır.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən fundamental islahatlar milli iqtisadiyyatın dayanıqlı inkişafını, sürətlə müasirləşməsini və əhalinin maddi rifahının davamlı şəkildə yaxşılaşmasını təmin edir. Hazırda Azərbaycan 2022-2030-cu illəri əhatə edən yeni strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə qarşıda iqtisadi artımın daha dayanıqlı drayverlərinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, innovasiya yönümlülüyünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi və azad edilmiş ərazilərin reinteqrasiyası kimi yeni vəzifələr durur.

Dövlətimizin başçısının təşəbbüsü ilə gələn ilin dövlət büdcəsində iqtisadi artıma və məşğulluğa dəstək məqsədilə dövlət investisiya proqramı üçün ayrılan vəsaitlərin həcmi 850 milyon manat artırılaraq 2,8 milyard manata çatdırılıb. Növbəti ilin büdcə layihəsi ölkədə genişmiqyaslı sosial proqramların həyata keçirilməsini, minimum əmək haqlarının, pensiyaların və digər sosial ödənişlərin artırılmasını əhatə edib.

Gələn ilin Dövlət büdcəsində nəzərdə tutulan sahələrə yönəldilən vəsaitlərin həcmində yüksək artımı ölkə iqtisadiyyatının dinamik inkişafı şərtləndirir. Belə ki, indiki iqtisadi vəziyyətdə tikinti sektoru istisna olmaqla iqtisadiyyatın bütün sahələrində artım templəri nəzərə çarpır.

Bunu statistik rəqəmlər də göstərir: cari ilin yanvar-sentyabr aylarında ÜDM-in 4,8 faiz artıb. Əgər 2017-2020-ci illərdə qeyri-neft sənayesində əlavə dəyərin orta illik artım tempi 9,3 faiz təşkil edirdisə, bu ilin 9 ayında qeyri-neft sənayesində əlavə dəyər 20 faizdən çox yüksəlib.




Ölkənin strateji valyuta ehtiyatlarının həcmi cari ilin oktyabr ayının sonuna kimi 53 milyard ABŞ dollarını ötüb ki, bu da proqnozlaşdırılan illik ÜDM-in, təqribən, 110 faizinə ekvivalentdir. Bu ilin 10 ayında qeyri-neft ixracının həcmində 42 faizlik artım müşahidə olunub ki, bu da ən yüksək tarixi göstəricidir. Bütövlükdə, 2021-ci il üzrə qeyri-neft ixracının həcminin 2,4 milyard ABŞ dollarından yüksək olacağı gözlənilir.

Bu il ölkədə iqtisadi artımın bərpası və sürətlənməsində pandemiya ilə bağlı hökumətin iqtisadiyyata genişmiqyaslı dəstək proqramlarının həyata keçirilməsi mühüm rol oynayıb. Bu məqsədlə, noyabrın 1-dək 243 mindən çox muzdlu işçiyə 250 milyon manatadək vəsait ödənib, 108 minədək fərdi (mikro) sahibkara 113 milyon manatdan çox maliyyə dəstəyi göstərilib.

Cari ilin 10 ayında vergi daxilolmaları 16 faizədək artaraq 7,4 milyard manata çatıb, 10 aylıq proqnoz 122 faiz səviyyəsində icra olunub, proqnozdan əlavə dövlət büdcəsinə 1,3 milyard manatdan çox vəsait daxil olub. Qeyri-neft sektoru üzrə vergi daxilolmaları 13 faizədək artaraq 5,4 milyard manata çatıb, 10 aylıq proqnoz 116 faiz səviyyəsində icra olunub. Sektordan daxilolmalar ümumi daxilolmaların 73 faizini ötüb.

Sonda qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən ölkənin iqtisadi dayanıqlılığının qorunub saxlanılması, aparıcı sahələr üzrə inkişafın təmin edilməsi üçün hökumətin qarşısında ciddi vəzifələr qoyulub. Bu baxımdan, dövlət büdcəsinin cari xərclərinin qeyri-neft sektorundan gələn gəlirlər hesabına örtülməsinə nail olunması, büdcə xərclərinin şəffaflığının və səmərəliliyinin daha da artırılması, xarici dövlət borcunun azaldılması əsas strateji xətt olaraq qalır.

*"Xalq qəzeti"*

Xalq qəzeti .- 2021.-18 noyabr.- S.1;3.